# ŞƏRQŞÜNASLIQ

UOT 82 (100) (091)

## SƏUDİYYƏ ƏRƏBİSTANI ƏDƏBİYYATI NOVELLASINDA REALİZM ƏDƏBİ CƏRƏYANI VƏ ONUN NÜMAYƏNDƏLƏRİ

**V.H.CABBAROVA**
***Bakı Dövlət Universiteti***
***Vüsale 012 (@) mail. ru***

*Məqalədə ümumərəb novellası sahəsində öz mövqeyi, mövzu rəngarəngliyi, qüdrətli sənətkarları olan Səudiyyə Ərəbistanı novellasının realizm yaradıcılıq üsulu, onun müxtəlif növləri və bu cərəyanın nümayəndələrinin yaradıcılığı haqqında məlumat verilmiş və onların əsərlərinin təhlili göstərilmişdir.*

**Açar sözlər**: Səudiyyə Ərəbistanı, rializm, novella, üsul, ərəb

Müasir Səudiyyə novellası doktor Məhəmməd Saleh əş-Şantının təbiri ilə desək, sözün əsl mənasında, Səudiyyə nəsrinin ən çevik, operativ, müstəqil qollarından biri sayılan geniş yayılmış bir janrına ancaq 1930-cu ildən sonra çevrilmişdir (7, 46).

Görkəmli Misir ədəbiyyatşünası Mahmud Əmin əl-Alimin novella haqqında söylədiyi qiymətli bir fikri bizə elə gəlir ki, Səudiyyə Ərəbistanı novellasına da aid etmək olar. O, yazır ki, müasir ərəb ədəbiyyatı nəsrində elə bir janr yoxdur ki, o novella qədər xalqa yaxın olub, novella kimi onun dərin məhəbbətini qazanmış olsun (6, 54).

Unutmaq olmaz ki, bədii yaradıcılıq fərdi xarakter daşıyır. Hər bir əsərdə cəmiyyət əhval-ruhiyyəsinin, ictimai münasibətlərin ifadəsi, bu və ya digər ölkə üçün müqəddəslik dərəcəsinə yüksəlmiş adət-ənənələrə, insan həyatında xüsusi rol oynayan müsbət dünyəvi və dini dəyərlərin mühafizə edilməsi ilə yanaşı hər bir ölkənin, daha doğrusu, hər bir xalqın müəllifinin öz fərdi aləmi vardır. Onun bu fərdi aləmi, yəni elmi erudisiyası, dünyagörüşü, mədəni səviyyəsi, cəmiyyətə münasibəti, təəssürat və həyəcanları mövcuddur.

Mühit dar çərçivədən ibarət deyil, o həm daxildə, həm də xaricdə açıq olan bir sistemdir. Onun təbəddülatlara, dəyişikliklərə, bir sözlə inkişaf etməsi, ancaq daxili amillərin deyil, eyni zamanda xarici amillərin təsiri ilə də olur. Bu

münasibətlər yazıçının öz hekayələrində nəyi ön plana çəkib, nəyi arxa plana keçirməyini, onun bu və ya digər adət-ənənəyə, dini və ya dünyəvi dəyərə verəcəyi qiyməti təyin edir.

Rus ədəbiyyatşünaslarından Q.P.Abramoviç, L.İ.Timofeyev (3, 215-217; 5, 126-130) və "Ədəbiyyatşünaslığın əsasları" (2, 194) kitabının müəllifləri çox haqlı olaraq qeyd edirlər ki, məfkurə istiqamətinə, dünyagörüşünə, estetik meyarına və metoduna görə, eyni cəbhədən çıxış edən yazıçıların fəaliyyəti, onların yaradıcılığı ədəbiyyatın inkişafında cərəyan əmələ gətirir. Demək lazımdır ki, eyni fikrə biz ərəb ədəbiyyatşünaslarının da əsərlərində rast gəlirik. Görkəmli Misir filosofu, mütəfəkkiri, şairi və qüdrətli ədəbiyyatşünası Abbas Mahmud Aqqad özünün الواقعية فى الأدب (ədəbiyyatda realizm) məqaləsində qeyd edir ki, həyatı elə təsvir etmək olar ki, o, əsl cəhənnəmə bənzəyər və bu dünyada əzab-əziyyətdən, od-alovdan başqa heç nə yoxdur. Ədibin əsas böyüklüyü ondadır ki, bu dünyanı nə cəhənnəm, nə də cənnət kimi təsvir etməsin, insan üçün cəhənnəmə qalib gəlməkdən ötrü mübarizə etməyin labüdlüyünü aşılasın. Əgər ədib hansı cərəyana, hansı ədəbi istiqamətə mənsub olduğunu təyin edirsə, o əvvəlcədən nə yazacağını və yazmalı olduğunu necə yazacağını təyin etmiş olur (8, 29).

Ədəbi cərəyanlar iki qismə bölünür. Birinci qismə yerli zəmində yaranan, ikinci qismə isə əcnəbi ədəbiyyatından sirayət edilən cərəyanlardır. Yerli zəmində yaranan cərəyanlara romantizm və realizmin tənqidi və psixoloji qolları aid edilir. Realizmin ictimai qolu və sırf psixologizm Səudiyyə novellasına Misir, Suriya və Livan novellasından keçmişdir.

Səudiyyə Ərəbistanı novellasında aparıcı metod realizm metodu olmuşdur. Doktor Seyyid Hamid ən-Nəssac "Misir novellasının istiqamətləri" kitabında dörd ədəbi istiqamətdən danışır. Bunları o, الفكرى الاتجاه، الاتجاه الواقعي، الاتجاه التحليلى، الاتجاه الرومانسي (romantik istiqamət, psixoloji istiqamət, realist istiqamət və ideoloji istiqamət) adlandırır. Özü də realist istiqamətdən danışarkən onun üç növünü göstərir və onları الو اقعية الشمولية، الو اقعية الانحيازية، الو اقعية الانطباعية (impersionik realizm, tərəfdar realizm və əhatəli realizm) adlandırır. Doktor Məhəmməd Saleh əş-Şanti isə ümumiyyətlə metod, cərəyan, istiqamət sözlərindən çəkinir və sadəcə الرمزية، الواقعية، العاطفية، الرومانسية، və السريالية الأبسردية (romantizm, sentimentalizm, realizm, simvolizm, sürrealizm və absurdizm) istilahlarından istifadə edir. Özü də o, realizmdən danışarkən الواقعية النفسية، الواقعية الاجتماعية، الواقعية الانقادية (tənqidi realizm, ictimai realizm, psixoloji realizm) növlərini göstərir. Lakin onları izah etmir (7, 11-16).

Məlum olduğu kimi dünya ədəbiyyatının inkişafında mərkəzi istiqamətlərdən biri olan realizm yazıçıdan cəmiyyətin ictimai həyatını ön plana çəkməyi, həyat hadisələrini inkişafda, onların aparıcı meylləri ilə, tarixi perspektivdə təsvir etməyi tələb edir. Əziz Mirəhmədov çox haqlı olaraq qeyd edir ki, yazıçının yaradıcılıq metodunu təyin edərkən, məsələ yalnız bu və ya başqa ədibin yaradıcılığını realizmə daxil etməkdə deyildir. Onun realizminin konkret səciyyəsini təyin etməkdədir, çünki realizm onun və ya başqa növünü yaradan

milli və sosial şəraitdən qarşılıqlı ədəbi, tarixi hərəkatdan asılı olaraq müxtəlif ictimai tarixi mühitdə rəngarəng şəkildə meydana çıxır (1, 175-176). Heç təəccüblü deyil ki, müasir ərəb novellasının da tədqiqatçıları bədii yaradıcılıq metodu olan realizmin bir neçə tipini göstərirlər. Bunlar aşağıdakılardır:

الواقعية التنويرية (maarifçi realizm); الواقعية التحيلية (analitik realizm); الواقعية التعبيرية 1) (Təsvirçi realizm), الواقعية الاجتماعية 2) (Sosial realizm) və الواقعية النفسية 3) (Psixoloji realizm)dir.

Səudiyyə Ərəbistanı novellasında realizm yaradıcılıq metodunun yaranması konkret adlarla bağlıdır. Bu adlar maarifləndirici və yaxud ziyalılandırıcı realistlər hesab edilən Xəlil əz-Fazi, Əhməd Sibəi, Ələvi əs-Safi, Nasir Ubeyli, Əbdül-Əziz əs-Sanabi kimi yazıçılardır. Bu yazıçıları doktor Məhəmməd Saleh əş-Şanti "Realizm ərəfəsi yazıçıları" adlandırır (7, 19-24).

Məlum olduğu kimi maarifləndirici realizm nümayəndələri xalqın maariflənməsinin tərəfdarı olub, onları feodal zülmünə və dini xurafata qarşı mübarizəyə hazırlamaq məqsədi güdmüşlər. Lakin Səudiyyə Ərəbistanı novellasında bu gün də davam edən maarifləndirici yaradıcılıq metodu öz mahiyyəti ilə qərb maarifçiliyindən kəskin surətdə fərqlənir. Səudiyyə novellaçıları feodal zülmünə qarşı açıq çıxış etmək imkanına malik olmadıqları üçün bunu bir növ üstüörtülü şəkildə ifadə edirdilər. Onlar xalqda feodal zülmünə qarşı nifrət yaratmaq, bütün insanların təbii azadlıq hüququna malik olduğunu başa salmaq yolu seçirlər. Dini xurafata qarşı mübarizədə isə onlar əsasən vəhhabi məzhəbinin ehkam və müddəalarına arxalanaraq, cadugərliyə, falçılığa, sehrbazlığa və sufi xanəgahların və müqəddəs qəbirlərinin ziyarətgah yerinə çevrilməsinə qarşı çıxırlar. Onların əsərlərində daha çox təhkiyyəyə yer verilir, moizə və təmiz islam dəyərlərinə və dini əxlaq normalarının izahına aludəçilik hiss olunur. Bu baxımdan Xəlil əz-Fəzinin 1977-ci ildə nəşr olunmuş " الساعة و النخلة "(Saat və xurma ağacı), 1978-ci ildə işıq üzü görmüş " النساء و الحب"(Qadınlar və məhəbbət) və 1979-cu ildə çapdan çıxmış " سوق الخميس" (Cümə axşamı bazarı) novellalar məcmuəsi çox xarakterikdir. Xəlil əz-Fəzi " امام محطة السيارات" (Avtomobil dayanacağı qarşısında) novellasında şəxsin özünə qarşı intihar etmə problemini qaldırır və onu qəribə bir şəkildə həll edir. Əsərin qəhrəmanı Həsən kasıb bir ailənin övladıdır. O özündən tamamilə narazıdır. Onun tayları ailə sahibləridir. O isə iş tapa bilmir, dərd çəkir, günü-gündən arıqlayır və o avtobus dayanacağına gedərək orada saatlarla dayanır və elə bir məqam gözləyir ki, özünü gələn maşınlardan birinə çırpsın və heç olmasa sürücüdən bir qədər pul qopararaq anası ilə bir müddət yaşaya bilsin. Lakin o, bunu etməyə qorxur.

Nəticə etibarilə Həsən dostunun yanında işə düzəlir, öz aləmində etmək istədiyi hərəkətdən utanır və "Allah səbir edənlərindir" deyir.

Xəlil əz-Fəzinin digər bir novellası " الأيادى الكثيرة" (Çox əllər) adlanır. Müəllif bu hekayəsində öz atasını qətlə yetirmiş bir qızın həyatından bəhs edir.

Xəlil əz-Fəzinin üçüncü hekayəsi " ساعدني عنترة" (Əntərə mənə kömək etdi) hekayəsidir. Bu hekayədə, ümumiyyətlə klassik ədəbiyyatdan, xalq hekayələrindən xəbəri olmayan bir gəncdən danışılır.

Müəllif burada elə bil ki, gəncləri mübariz olmağa və həyat uğrunda mübarizədə ərəb xalqının qəhrəmanlarının timsalından istifadə etməyə dəvət edir.

Maarifçi realizm səpgisində yaradıcılıqla məşğul olan ədiblərdən Ələvi əs-Safi, Nasir əl-Udeyli, Əbdul-Əziz əs-Saqabi, Adil əbu Şənəb, Xəlil əz-Fəzi Səudiyyə xalqının maariflənməsinə, öz ədəbiyyatına, tarixinə yiyələnməsinə kömək edir və xalqın bu yolla ziyalılanaraq irəli getməsinə zəmin yaradırlar. Bu baxımdan Ələvi əs-Safinin "بين القوسين" (Mötərizə arasında), "مدينة العقود" (Düyünlər şəhəri), Nasir əl-Udeylinin "الزمن و الشمس اللذيذة" (Zaman və ləzzətli günəş), Əbdül-Əziz əs-Saqabinin "البحث عن التراب" (Torpaq axtarışı) məcmuələrinin hər biri maarifləndirici realizmin gözəl nümunələri hesab olunur. Xüsusilə Nasir əl-Udeylinin الزمن و الشمس اللذيذة (Zaman və ləzzətli günəş), novellalar məcmuəsindəki **"الزمن السباحة خارجة"** (Zaman xaricində uçuş), "سمفونية الجفاف" (Quraqlıq simfoniyası), "الألوان الثلاثة" (Üç rəng) novellaları olduqca problematik novellalardır. “Quraqlıq simfoniyası” novellasını müəllif çox maraqlı bir cümlə ilə bitirir. O yazır:

لم يعدالجفلف غو لا يهد دلإنسان. إنماالجفاف جفاف المعرفة و العلم و جفاف الروح و ليس جفاف الأرض و الماء

“Quraqlıq artıq insanı qorxudacaq bir ifritə deyil. Quraqlıq elm, bilik, yüksək ruh quraqlığıdır. Torpaq və su quraqlığı deyil”.

Tənqidi realizm yaradıcılıq metodundan istifadə edən Səudiyyə novellaçıları çox olsa da onların ən görkəmlisi Abdullah əs-Səlumi, Məhəmməd Əli Qüds, Abdullah Baqazi hesab olunurlar.

Məlum olduğu kimi, tənqidi realistlər bədii analizdən istifadə edərək ictimai bəlaların köklərinə sirayət edir, onları göstərirlər. Bununla onlar ictimai qavramanın oyanmasına kömək edir, sosial dəyişikliklərin zəruriliyi üçün bir növ zəmin yaradırlar. Lakin onlar özü bu sosial dəyişikliklərin yollarını göstərmirdilər. N.A.Qulyayev yazır ki, “tənqidi realizm yaradıcılıq üsulundan istifadə edən ədiblər, ancaq insanın xarici hərəkətlərini təsvir etmir, eyni zamanda onların psixoloji motivlərini və ən əsası isə onları bu hərəkətlərə vadar edən ictimai şərtləri göstərirdilər” (4, 224). Rus ədəbiyyatşünaslarının tənqidi realizmin ictimai və psixoloji prinsipləri adlandırdıqları psixoloji və ictimai amillər Səudiyyə Ərəbistanı ədəbiyyatşünaslarının əsərlərində özünü daha da qabarıq göstərir. Ola bilsin ki, məhz buna görə də Səudiyyə ədəbiyyatşünasları, ümumiyyətlə, Səudiyyə novellasında bədii yaradıcılıq istiqamətlərindən danışarkən, tənqidi realizmlə yanaşı sosial və psixoloji realizm növünü də göstərirlər.

Müasir Səudiyyə novellasında tənqidi realizmin görkəmli nümayəndələrindən biri olan Abdullah əs-Səlumi özünün 1982-ci ildə çapdan çıxmış "شروج في و جه الأسفلت" (Asfalt üzərində çatlar) hekayələr məcmuəsində ölkədə yeni yaranmaqda olan ictimai münasibətlərə toxunur. O, "الحر" (Azad) novellasında son on il ərzində kənddə baş verən dəyişikliklərə toxunur və şəhərin kəndi mədəniyyətləşdirmə yolunda oynadığı mənfi rolu xüsusilə qeyd

edir. Bu hekayə son dövrlərdə neftdən gələn gəlirlər hesabına zəngin bir dövlətə çevrilmiş Səudiyyə dövləti üçün çox aktual bir problemdir. Bu hekayələr məcmuəsində "مرايا غرفة النوم" (Yataq otağının güzgüləri), "أنشودة المطر" (Yağışın mahnısı), "حقيبة السفر" (Yol çantası), "العروس تطلب مهرا" (Bəy başlıq istəyir) və nəhayət "عندما تغيرت الأغنية" (Mahnı dəyişəndə) novellalarının hər birində 1973 və 1981-ci illərdə Səudiyyə Ərəbistanı cəmiyyətində baş vermiş yeni ictimai hadisələrə aid problemlər qoyulur və həll olunur.

Bu yaradıcılıq üsulunun ikinci nümayəndəsi Məhəmməd Əli Qüdsdür. Məhəmməd Əli Qüds Səudiyyə novellasında kiçik qayğılar probleminin ustası hesab olunur. Onun 1960-cı ildə nəşr olunmuş "الفتاة في المدينة" (Şəhərdə bir qız) və 198 1-ci ildə nəşr olunmuş "الزعيم" (Lider) novellalar məcmuəsinin hər biri köhnə ictimai münasibətlərin tənqidinə həsr olunmuş və yeni yaranan ictimai münasibətlərin ortaya çıxaracağı təhlükələrin qarşısını ala biləcək problemlərin vaxtında nəzərə alınması məsələsinə toxunur. "الزعيم" (Lider) məcmuəsinin bir neçə hekayəsi o cümlədən "النضال" (Mübarizə), "يكبر السؤال" (Məsələ böyüyür) novellaları kişi-qadın münasibətlərinə, ailə-məişət məsələlərinin tənqidinə, yeni münasibətlər yarandıqca köhnələn və lakin öz yerini yeni münasibətlərə verməyən adət-ənənələrin tənqidi verilir.

Məhəmməd Əli Qüdsi "الرجوع إلى و طن قديم" (Köhnə vətənə qayıdış) hekayəsində Səudiyyə cəmiyyətində özünə möhkəm yer alan urbanizasiya prosesinə qarşı çıxır və şəhərlərə köçüb, onun kəsif havası ilə zəhərlənən sağlam gənclərin xəstəliklər taparaq öz kəndlərinə, sağlamlıq təcəssümü olan təbiətin ağuşuna qayıtmalarından danışır.

Bu zümrəyə aid edilən üçüncü ədib Abdullah Baqazidir. Abdullah Baqazi özünün 1979-cu ildə çap olunmuş "الموت و الابتسامة" (Ölüm və təbəssüm) novellalar məcmuəsində bir növ iki aspektdə çıxış edir. Onun hekayələrindən bir qismi tənqidi realizm yaradıcılıq üsulundan uzaq adi təsviri xarakteri daşıyan novellalardır. İkinci qisim novellalar isə tənqidi realizm yaradıcılıq metodunun ən gözəl nümunələrindən ibarət olan novellalardır. Birinci qrup novellalardan fərqli olaraq Abdullah Baqazi ictimai motivli novellalarında, dilə, təsvir vasitələrinə, özünün ifadə tərzinə xüsusi diqqət yetirir. Onun (Ana ) "أم" hekayəsi bu baxımdan çox xarakterikdir.

Səudiyyə ədəbiyyatşünasları realizmin növlərindən danışarkən tənqidi realizmlə yanaşı onun sosial və psixoloji simvolizm növlərini də qeyd edirlər. Doktor Məhəmməd Saleh əş-Şanti bu ədəbi istiqamətləri müvafiq olaraq الواقعسة الاجتماعية (İctimai realizm), الواقعية النفسية (Psixoloji realizm) və الاجتماعية الرمزية (Simvolik realizm) adlandırır (7, 100).

Səudiyyə Ərəbistanı novellasında ictimai realizmin ən qüdrətli nümayəndəsi Hüseyn Əli Hüseyndir. O, özünün "طابور المياه الحديدية" (Dəmir su üçün növbə) novellalar məcmuəsində ictimai realizmin ən gözəl nümunələrini yaratmışdır.

Hüseyn Əli Hüseynin digər bir novellasında da ictimai problemlər

maraqlı bir şəkildə həll olunur. Bu novella 1983-cü ildə çapdan çıxmış "ترنيمة الرجل المطارد" (Təqib olunan kişinin nəğməsi) novellalar məcmuəsinin ilk novellasıdır. Novellanın adı "قصة النخلة" (Xurma ağacının hekayəsi) adlanır.

Novellanın sonunda cəmiyyət dərdindən quruyan xurma ağacının timsalında insan cəmiyyətin özünün ictimai bəlalardan can qurtarmadığı təqdirdə məhv olub gedəcəyindən ehtiyat edir.

Hüseyn Əli Hüseyn ictimai realizm yaradıcılıq üsulu ilə bərabər psixoloji realizm üsulundan da istifadə etmişdir. Onun adı çəkilən məcmuəsindəki "حكاية جرز" (Siçovulun hekayəsi) novellası bu baxımdan çox xarakterikdir.

Səudiyyə novellasında rəmzi realizmin ən qüdrətli nümayəndəsi, görkəmli novellaçı Əhməd Buqiri hesab olunur. O özünün "قصة اختيار أغنية طريق الحزينة" (Qəmgin yol mahnısının seçilmə hekayəsi) novellasında avtomobili kənddən şəhərə, gerilikdən mədəniyyətə keçid rəmzi kimi verir.

Psixoloji realizmin ən məşhur nümayəndələrindən biri Sibəi Osmandır. Sibəi Osmanın "دوایر في الدفتر الزمن" (Zaman dəftərində fırlanma) məcmuəsindəki novellalarında sırf psixologizm hiss olunur. Bununla belə onun psixologizmi müəyyən bədii tipin psixologizmidir. O, novellalarının əksəriyyətində ictimai realizm metodundan istifadə etsə də, obrazların psixologiyasına xüsusi fikir verərək, onun daxili aləmini ön plana çəkir və bu daxili aləmin xarici aləmlə həmahəngliyini göstərmək istəyir. Bunun üçün o, obrazların xarici görünüşünü də, daxili psixoloji amillərə əsasən təsvir edir. Məsələn, Sibəi Osman 1980-ci ildə nəşr etdirdiyi "الحائط البندقية" (Divar və tüfəng) novellasında eyni zamanda iki nəfərin obrazını yaradır. Bunlardan birisi şəhərdən onun üçün yad olan mühitə gələrək, orada işləmək məcburiyyətində qalan gənc Əhməddir. O, gülərüz, hündürboylu, mütənasib qamətli, təbəssüm saçan baxışları olan bir gəncdir. Əhməd alışmadığı kənd mühitində əzab çəksə də, orada nə isə alışmış olduğu şəhər adət-ənənələrinin oxşarlığını axtarıb tapmaq istəyir. Lakin tapa bilmir və hər addımda əzab-əziyyət, iztirab çəkir.

Lakin mələk sifətli, gözlərindən qığılcım yağan kənd qızı Leylanı gördükdən sonra kənd Əhməd üçün yeni bir xüsusiyyət kəsb edir. Onun dünyası işıqlanır, qızmar günəş də öz yandırıcı xüsusiyyətini itirir.

Ümumiyyətlə, Səudiyyə Ərəbistanı novellasına qiymət vermək lazım gələrsə, demək olar ki, Səudiyyə novellası keşməkeşli bir yaradıcılıq yolu qət edərək bir çox yaradıcılıq üsullarından istifadə etmiş və nəhayət, ictimai həyatın həqiqi inikası olan realizm bədii yaradıcılıq üsulu üzərində bərqərar olmuş, ərəb novellasına Mopassan və Çexov novellaları səviyyəsində novellalar bəxş etmişdir.

## ƏDƏBİYYAT


1. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: Azərbaycan Ensiklopediyası, 1998, 240 s.
2. Mir Cəlal. P., P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, 280 s.
3. Абрамович Г.П. Введение в литературоведение. М.: Просвещение, 1975, 351 с.
4. Гуляев Н.А. Теория литературы. М.: Высшая школа, 1985, 271 с.

5. Тимофеев Л.И. Основы теории литературы. М.: Просвещение, 1976, 448 с.
6. الحازنی، منصور، **فن القصة فی الادب السعودی**، دارالعلوم الطباعة و النشر، الحدیث، ۱۹۸۶، ۵۲ ص.
7. الشنطی محمّد صالح، **القصة القصیرة المعاصرة فی المملكة العربیة، السردیة**، دار المریخ، الیاض، ۱۹۸۷، ۳۵۷ ص.
8. حسین علی محمّد، جمالیات القصیرة، در اسة نقدیة، الشركة العربیة النشر و النوزیع، الریاض، ۱۹۹۳، ۱۵ ص.


## РЕАЛИСТИЧЕСКОЕ ЛИТЕРАТУРНОЕ НАПРАВЛЕНИЕ В НОВЕЛЛЕ ЛИТЕРАТУРЫ САУДОВСКОЙ АРАВИИ И ЕГО ПРЕДСТАВИТЕЛИ


**В.Г.ДЖАББАРОВА**


### РЕЗЮМЕ


В данной статье даны материалы о творческом методе реализма и разрядах в новелле Саудовской Аравии, которые имеют свою позицию, богатую тематику, мастеров художественного слова в области общеарабской новеллы.

В научной работе освещено творчество представителей этого направления и проанализированы их труды.



**Ключевые слова**: Саудовская Аравия, реализм, новелла, метод, араб


## THE TREND OF LITERARY REALISM AND ITS REPRESENTATIVES IN SAUDI ARABIA'S SHORT STORY LITERATURE


**V.H.JABBAROVA**


### SUMMARY


The article studies materials on the creative method of realism in Saudi Arabia's short story literature. The author elucidates creativity of representatives of this genre and analyzes their works.



**Key words:** Saudi Arabia, realism, short story, method, Arabic